# Yaşıl Puma

**(Hekayə)**

**Qismət Rüstəmov**

**Tərcümə etdi:**
**Sevinc Tahirova**



***Nömrəm elektron lövhədə göz vurmağa başlayan kimi, irəli keçib boşalan kresloda oturdum. Yaşıl Pumaya elə bu gün sahib olmalıydım! Hesabdan pul çıxarmaq istədiyimi öyrənən qarabuğdayı qız saatına baxdı, təəssüf-sevinc qarışığı bir təbəssümlə dilləndi: 'Nahara az qalıb, nahardan sonra gəlin." Qızın təəssüfündə müştəriyə ürəyi yandığını göstərmək cəhdi olsa da, sevincində bir azdan başlayacaq lanç fərəhi oynaşırdı. Əlbəttə, nahardan sonra gələcəkdim, Yaşıl Pumanı sabaha qoyası deyildim ki!***

İçərişəhərdəki "İnkvizisiya – orta əsr işgəncə alətləri" sərgisini də naharın bitməsini gözlədiyim həmin saatlarda gördüm. Vaxtı öldürmək üçün bundan münasib yer ola bilməzdi.

Üç rəqəmli nömrəm elektron lövhənin maviliyində batıb-çıxmağa başladı, bu dəfə başqa kreslonun müştərisiydim. Sarışın qızın zeytun dənəsi gözləri nahar sonrasının xumarına təslim olmaq istəmirdi. Sənədlərimi verdim, əvvəldən hazırlamışdım, çünki Yaşıl Pumanı tez almaq istəyirdim. Sarışın qız dırnaqlarına qapqara lak çəkilmiş uzunsov barmaqlarıyla klaviaturanı döyəcləyib məlumatlarımı dişlərini ağardan xanalara daxil etməyə başlayanda əməllibaşlı diksindim. Yəqin orta əsrlər olsa, belə dırnaqlara görə bu qıza cadugər deyib işgəncə verərdilər.

Sərgi bitmək bilmirdi.

Yaşıl Puma çox gözəl görünürdü, onu əlimdə tutduğuma inana bilmirdim, bir azdan ayaqlarım da sevinəcəkdi. Satıcı oğlan sırğasını oynadıb fonoqramı qoşdu: "Pumanı nəylə yuyacaqsız?" Çox fikirləşmədən, "əskiylə siləcəm, şotkalayacam" desəm də, qarşı tərəf hazır sözlərlə atəş açmağa davam etdi: "Cəmi 5 manat əlavə ödəməklə, öz qiyməti 10 manat olan, dünyanın bir nömrəli ayaqqabı təmizləyicisi "Best step"i əldə edə bilərsiniz. Köpüyü də özündədir, suyu da, şotkası da. Pumanız həmişə təmizlikdə olacaqq"

Razılaşdım. Sırğa qımışa-qımışa Pumanı qutuya qoydu, qapağı örtəndə birdən nəsə yadına düşdü, əyilib aşağı dolabdan bir sellofan çıxardı, səsi qulağımda qamçı kimi şaqqıldadı: "Unutmadan deyim, bu rezin bağcıqları alsanız, hər dəfə ayaqqabınızı bağlamalı olmayacaqsız, bir dəfə bağlayacaqsız, sonrası super rahatlıq! Cəmi 4 manat 50 qəpik əlavə ödəyəcəksiz." Yaşıl Puma par-par yanırdı, "olsun, olsun" – dedim.

***Həyəcanla əlimi gah cibimə salır, gah telefonumla oynayırdım ki, vaxt keçsin, amma bayaqdan məni 'sabunlayıb şotkalayan" sonra isə 'rezin bağcıqlarla" yüngül işkəncələrdən keçirən Sırğanın beynində təzə cadugər qazanları qaynayır, yeni gilyotinlər qururdu: 'Son olaraq deyim ki, bu gün axırıncı günü olan bir kampaniyamız var, əgər indicə aldığınız Yaşıl Pumadan bir yox, iki ədəd alsın, üçüncüsü sizə havayı düşür, istəməzsiniz?"***

İstəmirdim, ya da istəmək istəmirdim, istəyə direniş göstərirdim, amma hiss edirdim ki, Sırğanın qurduğu cümlənin axırındakı sual işarəsi boğazımdan yapışıb məni nəfəs almağa qoymur. Nəfəsim darala-darala, gözlərim bərələ-bərələ ağlımdan "bəlkə də istəyirəm, etiraf etmək lazımdır?" fikri keçdi.

Sırğa atdığın tilovun, qurduğu torun başına fırlanan şikarını səbrlə süzür, kim bilir, bəlkə də ürəyində əvvəlki qrubanlarıyla yeni qurbanını müqayisə edir, xəyalındakı cədvəldə sayrışan rəqəmlərə baxıb öz rekordunu qırmaq istəyirdi.

Yaşıl Pumanın eleqant dizaynı ona əldə etməyə çalışdıqca araya girən təkliflərlə sakral məzmuna bürünür və cəmi bir əl uzaqlıqdakı əlçatmazlığı ağır toppuz, kəskin qılınc, iti xəncər kimi içimi-çölümü didir, məni qan-tər içində qoyurdu.

Qərar verdim: istəyirdim. Biri hara, üçü hara?! Üç də yaxşıdır: ata, oğul, müqəddəs ruh. Deyəsən "kilsə" qalib gəlirdig

***Udqunub cavab verdim: 'İstəyirəm, amma üstümdə o qədər pul yoxdurg"***

***Sırğa tilovu çəkdi, toru yığışdırdı, qəfildən ətrafda rəqqasələr peyda oldu, atəş-fəşanlıq başladı, günahkar təslim olmuşdu, indi bircə sonuncu addımın qırmızı lentini kəsmək qalırdı. Sırğanın ağzı iri bir qayçıya döndü, açılıb-yumulmağa başladı: 'Düz bizim dükanla üzbəüz bir neçə bankın ekspress filialları varg"***

***Boylanıb baxdım: Yeddibaşlı bir əjdaha bütün gözlərini mənə zilləyib baxır, qanlı dodaqlarına yapışdırdığı gülüş smaylikini tərpədirdi...***

Türküstan.- 2022.- 1-7 mart.- S.15.